## КЛАССИФИКАЦИЯ ПРОГРАММНОГО ОБЕСПЕЧЕНИЯ

***Доцент Кубышов Ильгар Надир оглу***

***Резюме***

Под программным обеспечением понимается совокупность программ, выполняемых компьютерной системой. Программное обеспечение — составная часть компьютерной системы, логическое продолжение технических средств. В современное время разработка программного обеспечения продолжается как интенсивно (новые подходы к построению операционных систем, языков программирования и т. д.), так и экстенсивно.

## SOFTWARE CLASSIFICATION

***Associate Professor Kubishov İlgar Nadir***

***Summary***

Software refers to the collection of programs executed by a computer system. Software is an integral part of a computer system, a logical continuation of technical means. In modern times, software development continues both intensively (new approaches to building operating systems, programming languages, etc.) and extensively.

***Rəyçi:dosent Əkrəm Aslanov***
***İnformatika və cəbr kafedrasının 16 noyabr 2022-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 18 noyabr 2022-ci il***

**UOT:531.**

## RESPUBLİKANIN CƏNUB İQTİSADİ RAYONLARINDA (LƏNKƏRAN) BAR VERƏN, YENİ ƏKİLMİŞ VƏ BƏRPA OLUNMUŞ ÜZÜMLÜKLƏRDƏ VƏ YENİ ƏKİLMİŞ VƏ BƏRPA OLUNMUŞ MEYVƏ BAĞLARININ CƏRGƏARALARINDA BİRİLLİK VƏ ÇOXİLLİK KƏND TƏSƏRRÜFATI BİTKİLƏRİNİN KOMBİNƏEDİLMİŞ ƏKİN TEXNOLOGİYASI

***Dos.Yusifov Mustafa Qasım oğlu, dos.Cavadov Elçin Məhəmməd oğlu, dos.Əhədova Gülçimən Rasim qızı, Hüseynova Gülbəniz Qurban qızı***
***Gəncə Dövlət Universiteti***
**elcin.55@bk.ru**
**gulcemenehedova@gmail.com**

**Xülasə:***Məqalədə respublikanın cənub iqtisadi rayonalrında (Lənkəran) bar verən, yeni əkilmiş üzüm plantasiyalarında və yeni əkilmiş və bərpaolunmuş meyvə bağlarının cərgəaralarında birillik və çoxillik bitkilərin kombinəedilmiş əkin texnologiyasından bəhs edilir.*

*İstifadəsi təklif olunan texnologiyada üzümlüklərdə quru budamadan sonra erkən yaza kimi və il ərzində bir bitkidən və lent üsulu ilə əkilmiş iki bitkidən bir neçə məhsul alınmasından bəhs olunur.*

*Təklif olunan texnologiyanın tətbiqi nəticəsində həm bitkilərin növbəli əkinə olan tələblər, həm əhalinin müxtəlif k/t –ı və tərəvəz məhsullarına olan tələblər, həmdə əhalinin məşğulluğu təmin olunmaqla, ölkənin ərzaq tələbinin ödənilməsi qismən təmin olunur.*

**Açar sözlər:** kombinəedilmiş texnologiya, bir mövsümdə eyni əkin sahəsindən bir neçə məhsul və xammal məhsulalrı almaq, ölkədə işsizliyin azaldılmış - əhalinin

məşğulluğunun artırılması, müxtəlif məhsulların çeşidinin artırılması, iqtisadi səmərəliliyinin yüksəldilməsi

**Ключевые слова**: комбинированных технология сева однолетных и многолетных культур в междурядиях урожайных, новорасаженных и восстановленных виноградных плантацийй и повопасаженных и восста-новленных фруктовых садах.

**Keywords:**combined technology of sowing annual and perennial crops between rows of productive, newly planted and restored vine plantations and replanted and restored orchards.

Hazırda dünya əhalisinin 8 mln ərzaq məsələsində ciddi çatışmamazlıqlar müşahidə olunur. BMT- nin göstərdiyi kimi yer kürəsində gedən qlobal dəyişikliklərlə əlaqədar hər ton ərzaq buğdasının qiymətinin 500 ABŞ dollarından çox olması proqnozlaşdırılır.

Dünya ölkələrinin bir-biri barışa gələ bilmədiyi siyasi, iqtisadi – hərbi, hətta dini baxışlarının toqquşması ərzaq proqramını dahada çətinləşdirir. Göstərilən səbəblərlə yanaşı ölkələr arasında fəaliyyətdə olması hesab edilən bir çox siyasi baxışlar, müxtəlif beynəlxalq təşkilat və birliklərin açıq – aşkar, yaxudda gizli şəkildə apardıqları ikili standartlar də öz mənfi təsirini göstərir. Buna açıq – aşkar misal olaraq göstərmək olar ki, keçmiş ittifaq ölkələri siyasi müstəqilliyi dövründən əsası qoyulmuş düşmənçiliyin qafqaz yaranan bədnam ermənilərin Azərbaycana qarşı 20% ərazinin işğalını göstərmək olar. 30 illik işğal dövrü BMT yalnız qərar qəbul etdi, yaradılmış Minsk qrupu və bu qrupa üzv ölkələrin yalnız müşahidələr nəzərə çarpırdı. Bunun nəticəsində yaranan qaçqınlar ordusu, köçkünlər axını belə siyasi təlatumu gücləndirir, qırğın və günahsız ölümləri təkan verirdi. Dünyada baş verən kiçik təlatumlar, terrorçu təşkilatlar özünü hazırki, Rusiya ilə Ukrayna arasında gedən beynəlxalq miqyaslı tarazlığın pozulması, yeni qaçqınların, ölümlərin artması bərpası əsrlərlə davam edəcək xarabalıqların, xerasimoların yaranmasına səbəb olur.

Məlumdur ki, bizim respublika keçmiş ittifaqa zorla birləşdirilmiş ölkələr arasında ən az torpaq sahəsinə və su ehtiyatlarına malik olan ölkə sayılır.

Ölkə başçısı İ.Əliyev cənabları çıxışında qeyd etdiyi kimi yer kürəsində baş verən siyasi çatışmamazlıqlar istiləşmə və qloballaşma nəticəsində dünyada olduğu kimi bizim ölkədə də ərzaq məhsullarının həllində çətinliklər yaranır.

Ölkəmiz taxıl məhsullarına tələbatın 60 %-ni, ərzaq buğdasının isə 15%-ni istehsal edir.

Respublikada ərzaq məsələsinin həllinə iqtisadi zonalar üzrə əkinə yararlı torpaq sahələrindən səmərəli istifadə etməklə yanaşı, sıradan çıxmış torpaqların əkinə yararlı hala gətirilməsi, su ehtiyatlarından qənaətlə istifadə olunması, üzümlüklərdə yeni əkilən və bərp olunan meyvə bağlarının cərgəarası sahələrində birillik və çoxillik k/t bitkilərinin kombinəedilmiş əkin texnologiyasının tətbiqi çox əlverişlidir. Cavan və bərpaolunan meyvə bağları üçün təklif olunn bu texnologiyanı Lənkəran iqtisadi zonasına aid olan bar verən üzüm bağlarının cərgəaralarında tətbiqi daha asan və əlverişlidir [1].

Üzüm plantasiyalarında təklif olunan birillik k/t bitkilərinin kombinəedilmiş səpin texnologiyasının ona görə əlverişlidir ki, üzümün budaqlanması - şaxələnməsi cərgəboyu olduğu üçün günün işıqlı vaxtı cərgəarasına kölgə düşmür. Qeyd ediləndən əlavə üzüm plantasiyalarında məhsul yığımından sonra iqlim şəraiti imkan verir ki, baş verən üzümlüklərin məhsul yığımından sonra payız ayından (noyabr ayından və daha tez başlayaraq mart ayının başlamasına kimi) bitkinin üstündə yarpaq olduğu və olmadığı halda quru budama aparılır və budanmış kütlə - budaqlar sahədən kənarlaşdırılır. Bu halda ümumi tarlada quru budama aparılmış cərgəaraları boş olan üzüm plantasiyalarının cərgəaralarında birillik faraş – tezyetişən və müəyyən müddət əzində yetişən (üzüm plantasiyasında yaz – tarla işləri başlanan kimi olan vaxt ərzində) kökümeyvəli (turp, çuğundur – yem və mətbəz çuğunduru – burakı, kök soğan və sarımsaq və s.) və kökümeyvəzis (xiyar, keşniş, reyhan,

ispanak, bibər, kələm və s.) k/t bitkilərinin kombinəedilmiş və qarışıq [7] texnologiyalar üzrə məhsul becərib yığma proseslərini yerinə yetirmək mümkündür.

Yuxarıda göstərilən bütün birillik və çoxillik k/t bitkilərinin əkilib becərilməsi həm ərzaq proqramının həllində və həmdə yüksək iqtisadi səmrəliliyn əsasıdır [15]. Bu göstərilənləri aşağıda göstərilmiş misaldan daha aydın görmək olar: 1982–ci ildə Azərbaycandan 1670 min ton üzüm istehsal olunduğu halda, 940 min ton tərəvəz istehsal olunmuşdur. Üzümün ümumi dəyəri (1670 min tonun) 2,7 mlrd manat olduğu halda, tərəvəzinki isə (940 min ton) 4 çlrd manatdan çox olmuşdur [7].

Yuxarıda göstərilənləri analiz etsək görərik ki, respublikamızın cənub zonasında mövcud olan yenisalınmış və bərpa olunmuş üzümlüklərdə birillik və çoxillik yem və ərzaq bitkilərinin (1 ÷ 3 il müddətində tam məhsula düşmə vaxtına kimi) əkilib becərilməsi və heyvandarlıq məhsulalrı təchizatında və ərzaq məhsulları üçün xammal təminatıdır. Bar verən üzümlüklərin cərgəaralarında məhsul yığımından sonra (erkən yaza kimi) keçən vaxt ərzində birillik tərəvəz bitkilərinin əkilib becərilməsi iqtisadi səmərəli olan gəlir mənbəyidir.

Yeni əkilmiş və bərpa olunmuş üzümlüklərdə cərgə aralarında birillik və çoxillik k/t bitkilərinin kombinə edilmiş və qarışıq səpin aparmaq və ərzaq proqramının həlledici amillərdən sayılır.

Lənkəran iqtisadi rayonuna aid olan rayonların əksəriyyətində torpaq – iqlim şəraitinin il ərzində əkinçilik üçün əlverişli olması və suvarma suyu ilə normal təchizatı imkan verir ki, yeni əkilmiş və bərpa olunmuş meyvə bağlarında cərgəarası məsafədə 3÷5 il müddətində bir və çoxillik k/t bitkilərinin kombinəedilmiş səpin aparmaqla il ərzində bir və ya bir neçə qarışıq səpindən bir və ya bir neçə məhsul əldə etmək həm ərzaq probleminin həmdə heyvandarlıq məhsullarının istehsalında həlledici rol oynayır. Azərbaycanın müxtəlif zonaları üçün meyvə ağazlarının alçaq və yüksək boylu meyvə ağaclarının basdırılması üçün əkin və qidalanma sxemi aşağıdakı cədvəldə verilmişdir [6, 4]

Azərbaycanın müxtəlif zonaları üçün meyvə bağlarının əkin sxeminə nəzər salsaq görərik ki, cərgəarası məsafə şimal zonası üçün ən az olması gavalı və albalı baağlarında (3,5÷4 m) nəzərdə tutulur.

Respublikanın Lənkəran iqtisadi zonasında ən azı 4÷6 m-dən başlayaraq 8÷10 m-ə kimi artır. Ona görədə cənub zonasında yeni əkilmiş və bərpa olunmuş meyvə bağlarında cərgəarası sahələrdə 3÷5 il müddətində birillik və çoxillik k/t bitkilərinin kombinəedilmiş əkin texnologiyasını yerinə yetirmək əlverişlidir. Bu texnologiya üzrə əkiləcək cərgəarası üzümçülük və meyvəçilik bağalrının ümumi sahəsinin 6586 ha olduğunu əsas götürsək, qəbuletsək ki, 6586ha –nın 10%-i cavan və bərpaolunmuşdur. O halda həmin ərazinin 658,6 ha-ya bərabər götürmək oalr.

| **Meyvə cinsləri** | **əkin zonaları** | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Cənub zonası** | | **Orta zona** | | **Şimal zonası** | |
| | **Bitkiarası 70 ha məsafə, m** | **Cərgəarası məsafə, m** | **Bitkiarası zona – məsafə m** | **Cərgəarası zona– məsafə, m** | | |
| Yüksək boylu calaqaltına calanmış alma, armud | 3÷6 | 6÷8 | 3÷4 | 6÷8 | 3÷4 | 5÷6 |
| Alçaq boylu calaqaltına | 2÷3 | 4÷6 | 2 | 4÷5 | - | - |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| calanmış alma, armud | | | | | | |
| albalı | 3÷4 | 6 | 2,5÷3 | 4÷5 | 2,53 | 3,5÷4 |
| gavalı | 3÷4 | 6 | 2,5÷3 | 4÷5 | 2,5 | 3÷5 |
| gilas | 4÷5 | 6÷8 | - | - | - | - |
| ərik | 4÷5 | 6÷8 | - | - | - | - |
| Şaftalı | 8÷4 | 5÷6 | - | - | - | - |
| heyva | 3÷4 | 5÷6 | - | - | - | - |
| **Digər meyvə cinsləri** | | | | | | |
| alça | 3÷4 | 6÷7 | 3÷4 | 6÷7 | 3÷4 | 6÷7 |
| Albalı antipka | 3÷5 | 6÷7 | 3÷5 | 6÷7 | 3÷5 | 6÷7 |
| Gilas antipka | 4÷5 | 6÷8 | 4÷5 | 6÷8 | 4÷5 | 6÷8 |
| Badam | 4÷5 | 6÷7 | 4÷5 | 6÷7 | 4÷5 | 6÷7 |
| qafqaz xirniyi | 4÷5 | 6÷8 | 4÷5 | 6÷8 | 4÷5 | 6÷8 |
| qoz | 8÷10 | 8÷10 | 8÷10 | 8÷10 | 8÷10 | 8÷10 |

Yeni və bərpa olunmuş üzüm və meyvə bağlarının 3÷5 il ərzində (həmin bağa ağacların tam məhsul verməyə catma vaxtı) kombinəedilmiş səpin texnologiyası əsasında birillik və çoxillik k/t bitkilərindən hər il üçün bir neçə dəfə məhsul əldə etmək oalr. Nəticədə həmin ərazidə k/t məhsulları istehsalına cəlb olunmuş işçilərin hesabına həmin iqtisadi zonada işsizlik azalmaqla yanaşı respublikanın ərzaq proqramının həllində yüksək iqtisadi nailiyyət qazanmaq olur.

Cavan və bərpa olunmuş meyvə bağlarının cərgəaralarında kombinəedilmiş birillik və çoxillik k/t bitkilərinin qarışıq və lentşəkilli əkin üsulunda il ərzində eynitorpaq sahəsindən bir neçə növ məhsul tədarük etmək mümkündür. Məsələn: cərgəaralarına sorqo – süpürgə bitkisi əkilərsə baş hissə biçilər təmizləmədən sonra hər ha –dan 50÷60 sentner dəndən – heyvandarlıq və quşçuluqda yem kimi, həmdə spirt, nişasta, patkə (sorqo balı), yarma (qrupa) və s. istehsalında. Baş hissə darama üsulu ilə toxumdan (dən) təmizlənmiş saçaqdan (ha hesabı ilə) 2÷3 min ədəd məişət süpürgəsi, 2,5÷3 m hündürlükdə gövdə hissəsi biçilib – xırdalanaraq şəkərliliyi 14÷16% olan qaba yemə gövdə hissə biçilib xırdalanmada dərhal suvarma apardıqdan sonra, payızın sonuna kimi alınan yaşıl kütlə biçilərək yaşıl yem kimi (biçildikdən 3 saat sonra) istifadə oluna bilir.

Yarıda göstərildiyi kimi kombinəedilmiş səpin texnologiyasında lent üsulunda istifadə olunan səpin zamanı iki bitki toxumu gencərgəli qaydada 45x15; 45x25; 45x20 və s. səpin aparılarsa 45sm gencərgə arasında sorqo – süpürgə, qarğıdalı və s. bitki, 45 sm-ə paralel cərgədə kökümeyvəli bitkilərdən – turp, mətbəx, yem çuğunduru və s. hər hansı biri əkilmiş olarsa, gencərgə ilə əkilmiş bitki yığıldıqdan sonra ona paralel 15;20;25 sm [2] cərgədə əkilmiş bitkinin yerüstü yaşıl kütləsi – tərəvəz və ya yaşıl yem kimi [5] yeraltı yumru hissəsidə lazımlı ərzaq və ya yem halında istifadəyə yararlı məhsul sayılır.

Nəticə olaraq qeyd etmək olar ki, respublikanın cənub iqtisadi zonası sayılan Lənkərana aid olan rayonlarda cavan və bərpa olunmuş üzüm [8] və meyvə bağlarında [4] cərgə aralarında kombinəedilmiş bir və çoxillik k/t bitkilərinin əkini həm həmin ərazidə yaşayan vətəndaşların qismən işsizlik məsələsi və həm də respublikada ərzaq proqramının həllində təsəvvür edilməz müsbət nəticələr alınmış olar.

***Ədəbiyyat***


1. M.Qaraqoyunlu "Ümumi coğrafiya" Bakı, 2012
2. N.N.Məmmədov, T.M.İbrahimov, A.C.Axundov "Kənd təsərrüfatı maşınları" Gəncə, 2006

3. А.Н.Карпенко., А.А.Зеленев., В.М.Хасанский «Сельскохозяйственные машины» Москва. «Колос» 1979, 471стр.
4. Zaur Həsənov., Cəbrayıl Əliyev "Meyvəçilik" Bakı, 2007. 459 səh.
5. Q.Y.Məmmədov., M.M.İsmayılov "Bitkiçilik" Bakı 2013, 354 səh.
6. M.Atakişiyev., T.Əliyev "K/T-ı əsasları üzrə laborator məşğələləri"
7. Mənzər Məmmədova., Məhbubə Həsənova "Tərəvəzçuilik" müəllim nəşriyyatı. Bakı, 2018
8. S. Abdullayeva "Üzüm sortlarının diferensial aqrotexnikası". "Müəllim nəş.". Bakı, 2017

## КОМБИНИРОВАННАЯ ТЕХНОЛОГИЯ ПОСЕВА ОДНОЛЕТНИХ И МНОГОЛЕТНИХ КУЛЬТУР В ПЛОДОНОСЯЩИХ, ВНОВЬ ЗАКЛАДЫВАЕМЫХ И ВОССТАНАВЛИВАЕМЫХ ВИНОГРАДНИКАХ И В РЯДАХ ВНОВЬ ЗАКЛАДЫВАЕМЫХ И ВОССТАНАВЛИВАЕМЫХ САДОВ В ЮЖНЫХ ЭКОНОМИЧЕСКИХ РАЙОНАХ РЕСПУБЛИКИ (ЛЕНКОРАНЬ)

***Юсифов Мустафа Касум оглы, Джавадов Эльчин Магомед оглы,***
***Ахадова Гюлчиман Расим кызы, Халилова Айнур Мирзаага кызы***

***Резюме***

В статье рассматривается комбинированная технология посадки однолетних и многолетних культур на вновь закла-дываемых виноградниках и в рядах вновь закладываемых и восстанавливаемых садов в южных экономических районах страны (Ленкорань).

Предлагаемая технология предусматривает получение нескольких урожаев на виноградниках после сухой обрезки до ранней весны и в течение года с одного растения и двух растений, высаженных ленточным способом.

В результате применения предлагаемой технологии частично удовлетворяется потребность страны в продовольствии за счет удовлетворения требований севооборота, а также потребности в различной сельскохозяйственной и овощной продукции, а также занятости населения.

## COMBINED TECHNOLOGY OF SOWING ANNUAL AND PERENNIAL CROPS IN FRUIT-BEARING, NEWLY PLANTED AND RESTORED VINEYARDS AND IN THE ROWS OF NEWLY PLANTED AND RESTORED ORCHARDS IN THE SOUTHERN ECONOMIC REGIONS OF THE REPUBLIC (LENKORAN)

***Yusifov Mustafa Kasum, Javadov Elchin Magomed***
***Akhadova Gulchiman Rasim, Khalilova Ainur Mirzaaga***

***Summary***

The article discusses the combined technology of planting annual and perennial crops in newly planted vineyards and in the rows of newly planted and restored orchards in the southern economic regions of the country (Lenkoran).

The proposed technology provides for several harvests in vineyards after dry pruning until early spring and during the year from one plant and two plants planted in a tape way.

As a result of the application of the proposed technology, the country's need for food is partially satisfied by meeting the requirements of crop rotation, as well as the need for various agricultural and vegetable products, as well as employment.

***Rəyçi: dosent Quliyev Niyazi***
***ÜTF-kafedrasının 08 dekabr 2022ci il tarixli iclasın 04 saylı protokolu***
***Daxil olduğu tarix 12 dekabr 2022-ci il***